

Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aynur Turan
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalın üz qabığındakı foto:
Oktay Musazadə

**F. Köçərli adına Respublika Uşaq Kitabxanası**

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.

Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**twitter.com/**childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan

# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 02 (78) / 2023





## *Xalqın sevimli siması*

# Firidun bəy Köçərli

160

***İstəkli balalar, heç bilirsiniz, 160 yaşlı Firidun babanın siz uşaqlara nə hədiyyəsi var? Elə böyük hədiyyə ki, Azərbaycan balaları nəsil-nəsil o kitabla böyüyəcək. Elə nurlu hədiyyə  ki, hər uşağın yolunu işıqlandırıb, aydın sabahlara aparacaq.***

Əziz balalar, bu fikirlər sizə tanış gəlirmi?.. Bəli, bu sətirləri siz jurnalın ötən sayında oxumuşdunuz. Elə isə, gəlin sözü gedən kitab haqqında söhbət edək.

**“Balalara hədiyyə”** kitabında məsəllər, tapmacalar, laylalar, bayatılar, sayaçı sözləri, nəsihətlər və təmsillər yer alır. Hər bir mətnin semantikası tərbiyə edici əhəmiyyətə malikdir. Əziz uşaqlar, F.Köçərlinin yaradıcılığı zəngin və çoxşaxəlidir. Onun yaradıcılığını daha da parlaq edən xalq yaradıcılığıdır. Çünki o, kökümüzlə çox sıx bağlı bir alimdir, pedaqoq, folklorşünasdır. Onun **“Balalara hədiyyə”** adlı kitabı siz uşaqlar üçün bir sənət abidəsidir. Hər sətri ilə tanış olduqca, qəlbiniz bu nadir inciləri yaradan  xalqın dühasına  dərin minnətdarlıq hissi ilə çırpınacaq. Ona görə ki, həmin sətirlərlə gözləriniz qarşısında əzəmətli mənzərələr canlanacaq. Xalq sözünün, xalq deyiminin bədii ifadə imkanlarının genişliyi  və sonsuzluğu üfüq-üfüq qarşınızda açılacaq.

***Layla dedim adına,***
***Haqq yetişsin dadına,***
***Hər layla eşidəndə,***
***Balam düşər yadıma.***
***Balam, layla, a layla!***
***Gülüm, layla, a layla!***



Firidun bəy Köçərlinin **“Balalara hədiyyə”** kitabı məzmun   etibarı ilə çox əhəmiyyətlidir. Bu kitabda yer alan fikirlər təkcə dövrünün yox, bu günün özündə də, aktual olaraq qalır. İnsanlar yaşlarından asılı olmayaraq hər zaman oxumalı, öyrənməli və öyrətməlidir. Onlara mədəniyyətimizi, tariximizi, dövlətimizi, dilimizi, dinimizi, millətimizi, milli-mənəvi dəyərlərimizi və xalq yaradıcılığını sevdirmək lazımdır. İnsanlar qarşılaşdığı hadisələr haqqında yaxşı və pis münasibətlərini xalq yaradıcılığı örnəkləri vasitəsi ilə bildirirlər.

F.Köçərlinin **“Balalara hədiyyə”** kitabında daha çox hadisələr heyvanlar üzərində qurulur. Başqa sözlə desək, heyvanların xarakteri vasitəsi ilə uşaqlara nəyin yanlış, nəyin doğru olduğu açılıb göstərilir. Heyvanların daxili aləmi, onların xarakteri müəyyən mövzular üzərində köklənərək uşaqlara tərbiyə edici mahiyyət aşılayır. Bir növ insanların həyatda mənfi münasibət qazanmalarının səbəbləri və yaxud pis insanların etdiyi xoşagəlməz hərəkətləri heyvanlar vasitəsi ilə izah edir. Çünki uşaqlar elə bir mürəkkəb psixologiyaya sahib olurlar ki, onları hər an istənilən istiqamətə yönəltmək mümkündür. F. Köçərli bir pedaqoq olaraq uşaqların psixologiyasına uyğun folklor mətnlərini toplayıb, çap etdirib ki, xalq yaradıcılığı ilə bağlı uşaqların müəyyən təsəvvürləri olsun.

**“Balalara hədiyyə”** kitabında yer alan əsas məsələlərdən biri xeyir və şər münasibətidir. F.Köçərli haqq, ədalət və doğruluğa aid çoxlu nümunələri misal göstərir. Məsələn, “Doğruya zaval yoxdur, çəksən hər divanə”, “Sən haqq ilə olhaqq səninlə olar”. Uşaqlara haqqın, doğrunun nə olduğunu erkən zamanda izah etsən o, gələcək həyatında xeyrin, şərin nə olduğunu biləcək.

F.Köçərli püxtələşmiş bir folklorşünas idi. Xalq yaradıcılığı nümunələrini toplamaqla yorulmadan məşğul olan pedaqoq bu işi özünə müqəddəs borc sayırdı. Çünki folklorumuzda xalqımızın tarixi, zəngin milli mənəvi dəyərlər sistemi mövcuddur. Xalq yaradıcılığını dərindən tədqiq etməklə nəinki folklorşünaslıq elmini, hətta bir çox sahələrin öyrənilməsi və tədqiq edilməsi də mümkündür. F.Köçərli topladığı xalq yaradıcılığı nümunələrini təkcə milli mətbuatımızda yox, xarici mətbuatda da çap etdirərək yayırdı.

F. Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq  üzərimizə çox mühüm vəzifələr düşür. Bizim ən ümdə vəzifəmiz böyük ədibimizi oxucularımıza tanıtmaq, onun dəyərli əsərlərini sevdirməkdir. Çünki ulu öndər Heydər Əliyevin söylədiyi kimi – Kitabxana məbədgahdır, hər bir ziyalının yolu bu məbədgahdan keçir.

# Dəvə və tikan



Bir dəvə çöldə otlayırdı. Yarpaqlanmış tikan koluna yaxınlaşıb istədi onun yarpaqlarını yesin. Ağzını kola tərəf uzadanda gördü ki, onun içində bir ilan qıvrılıb yatıb. Dəvə tamah dişini ondan çəkib geri qayıtdı.

Kol belə xəyal elədi ki, dəvə onun tikanından qorxub çəkildi.

Dəvə kolun fikrini duyub dedi:

-Mənim qorxum səndən deyil, o gizlənmiş qonaqdandır.

## Məsəllər

- Bu günün işini sabaha qoyma.
- Qalan işə qar yağar.
- Qoyunu qurda tapşırmazlar.
- Dəvə yaxını otlayıb uzağı gözlər.
- Dostun sirrin dost bilər.
- Yeyərsən qaz ətini, görərsən ləzzətini.
- Hamı bilir ki, dağda kəklik gözəldir.
- Su sənəyi suda sınar.

## Tapmacalar

Kitab kitab içində,
Atlas da qab içində,
Nə molla bilir, nə axund,
O da bir qab içində.

Qara toyuq qarğalar
Evdən-evə yirğalar.

Taxçadan düşdü, tap elədi,
Gülsənəm onu hap elədi.

Altı hovuz içərlər,
Üstü zəmi biçərlər.

O yanı çəpər,
Bu yanı çəpər,
İçində atlı çapar.



## ÇOBAN

Göydəki göy buludlar
Yorğanıdır çobanın.
Yastı-yastı təpələr
Yastığıdır çobanın.
Yumru-yumru qayalar
Yumruğudur çobanın.
Əlindəki dəyənək
Qalxanıdır çobanın.
Yanındakı boz köpək
Yoldaşıdır çobanın.
Ağzı qara canavar
Düşmənidir çobanın.



# TÜLKÜNÜN HEKAYƏTİ

Bir kişinin maldan-dövlətdən ancaq bir neçə toyuq-cücəsi var idi.

Bir tülkü bunlara dadanıb, gecədə birini aparıb yeyərmiş. Axırda kişinin bircə toyuğu qalır.

Kişi gecə yatmayıb pusquda oturur ki, görsün, toyuqları aparan kimdir?

Gecənin bir vaxtı tülkü xəlvətcə gəlir ki, o qalmış toyuğu da aparıb yesin.

Tülkü toyuq damına girəndə kişi tez qapıları bağlayıb, arvadını yuxudan oyadır və ikisi köməkləşib tülkünü tuturlar.

Kişinin ürəyi çox yanmışdı və tülküdə acığı var idi. Ona görə tülkünün yediyi toyuq-cücəni bir-bir yadına salıb bu sözləri oxuya-oxuya onu döyür:

Qaya başında durarsan,
Sarı bığını burarsan,
On beş cücəmi qırarsan.

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!

Tülkü, quyruğun aladır,
Qayalar sənən qaladır.
Tazı başına bəladır.

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!

Əlimə aldım kürəyi,
Yoxladım damı-dirəyi,
Qopdu tülkünün ürəyi.



Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!
Arvad, götür yarmaçanı,
Qoyma deşikdən qaçanı.
Neylədin xoruz-beçəni?!

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!

Təndirə qoydum noxudu,
Dərdim ürəkdə çox idi,
Yoxladım, fərəm yox idi.

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!

Gecə pusquda yataram.
Yuxuma haram qataram,
Dərini baha sataram.

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!



# Beynəlxalq Uşaq Kitabı Günü






1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurası tərəfindən Danimarka yazıçısı, uşaqların sevimlisi Qans Xristian Andersenin dünyaya gəldiyi gün – aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günü kimi təsis edilib. Bildiyiniz kimi 2012-ci ildən F.Köçərli adına Respublika Uşaq Kitabxanası Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdir.

Hər il bütün dünyanın bu günü qeyd etməsində məqsəd cəmiyyətin diqqətini uşaq ədəbiyyatına, onun problemlərinə və kitab mədəniyyətinə cəlb etməkdir.

"Beynəlxalq Uşaq Kitabı Günü" münasibəti ilə Azərbaycan uşaq yazıçısı, şairə, tərcüməçi, publisist Sevinc Nuruqızı ilə məktəblilərin görüşü keçirilib. O, məktəblilərə "Duman pəriləri ŞUŞA" adlı kitabı və eləcə də, digər kitablarından söhbət açıb. Tədbirin keçirilməsində məqsəd uşaqların intellektual inkişafında kitabın rolunu artırmaq, kitaba sevgi aşılamaqdır. Tədbir zamanı ilk dəfə kitabxananı ziyarət edən Yunanıstan Beynəlxalq Uşaq Kitabı Şurası (İBBY) idarə heyətinin üzvü xanım Mariya Delaki də sözü gedən tədbirdə iştirak edib.

***Xanım Mariya Delaki*** məktəblilərə yunan uşaq ədəbiyyatı nümunəsindən "Paltar sancaqları" nağılını azərbaycan dilinə tərcümə ilə oxuyub, şagirdlərin marağına səbəb olan sualları cavablayıb.















# DUMAN pəriləri

Sevimli yazarlarımız



## Sevinc Nuruqızı

Günəş hələ də otların arasında nəyi isə itirmiş kimi dolaşır, yaşıla toxunub, ətrafa qəribə yaşılı-sarı parıltı yayırdı. Zəfər Cıdır düzünün nəhayətsiz qoynunda uzanıb, səmaya ba- xırdı. Çəmən dalğalanır, qaçışan uşaqlar irili-xırdalı otların arasından görünüb, yox olurdular. Yaxınlaşıb-uzaqlaşan gülüşlər, nəğmələr, zarafatlar arasından Zəfər Mərcanın səsini asanlıqla ayırd edir və hər dəfə də Mərcan yanından ötəndə xarıbülbüllərin, otların üstündən başını qaldırıb ona baxırdı:

-Dur da, Zəfər. Dur... Gözünü səmaya elə zilləmisən ki, elə bil kiminsə yolunu gözləyirsən.

Mərcan yalnız bu qədər deyə bilir və sürətlə ötüb keçirdi....

Yaşıl parıltılar düzə səpələnmiş milyonlarla fənər kimi yanıb-sönürdü.

Günəş yaşılla elə oynayırdı ki, sanki illərlə bir-birinə həsrət qalmışdılar.

Amma təbiətin elə möcüzələri var ki...

Və qəfildən bu möcüzələrdən biri baş verdi. Səmadan ağ-boz çalarlı, zərrəcikləri sayrışan tül pərdə endi. Pərdə günəşi bıçaq kimi kəsdi. Onun son şəfəqləri bu boz tülü dəlib keçməyə son cəhdini etdi. Tül pərdə orda-burda azca parıldadı, bu parıltıda gümüşü nöqtələr işıldadı. Günəş şəfəqləri bir də irəli yeridi. Bir də... Bir də... Alınmadı. Sonda günəş şüaları məğlub ordu kimi geri çəkildi. Bəyaz-boz çalarlı duman Cıdır düzünü köksünə sıxdı. Xarıbülbüllər dumana qısıldı, otları xəfif meh daradı... Uşaqların gülüşü və nəğmələri daha yaxında eşidildi...

- Gedirik, Zəfər. Qalx ayağa. Düzə duman gəldi. Bir azdan göz-gözü görməyəcək... Zə-fər-rrrrr...

Mərcanın səsi dalğa-dalğa əridi, dumana qarışıb yox oldu... Dağların arası ki ilə axan Daşaltı çayının səsi ilə dumanın səsi doğmalaşdı - ssssss...

Zəfər başını yerdən qaldırdı. Qulağına qəribə hənirtilər gəldi. Təəccüblə ətrafına göz gəzdirdi. Səsləri yuxuda eşidirmiş kimi ayağa qalxdı. Əllərini səslərə doğru uzadıb, bir neçə addım getdi. Səslər yaxınlaşdı.

-Eheyyy... Biz buradayıq...



ƏZİZ DOSTLAR!

Bildiyiniz kimi, mən oxumağı çox sevirəm. Çox vaxt kitabxananın kitab rəflərində maraqlı kitablar axtarıram. Baxın, görün nə tapmışam. Necə maraqlı və rəngarəng kitabdır!

- Burada. Bura bax...

- Yox, sən bura bax. Bura... Bura...

Zəfər ağlını itirmiş kimi düzün ortasında gəzişdi. Səslər həzin musiqi notları kimi idi. Do, re, mi, fa, sol, lya, si... ssssss... ssssssss... sssssss...

- Bura baaaaxxxx... Bu tərəfə.

Qafil duman seyrələn kimi oldu. Seyrələn duman saysız-hesabsız nazik boz- bəyaz işıltılı tellərə çevrilib səmadan asıldı. Milyonlarla işıltılı tel göy üzünü bəzədi. Və... İnanılmaz... Təəccüblü və həyacanlı. Ağlasığmaz... Hər işıltılı teldən tutub göy üzündən bir qanadlı pəri endi. Qanadlı. Anlada bilirəmmi?!

Qanadları cırcırama qanadından da yüzlərlə dəfə zərif və parıltılı... Hər yan işıqla doldu. Duman çəkildi. Pərilərin ipək saçları havada mavi-çəhrayı iz buraxaraq uçuşurdu. İncə və büllur ayaqları torpağa toxunub qalxır, havada dairə cızır, yenidən tellardan yapışıb Duman pəriləri sürətlə səmaya dönürdülər. Parıltılı tellər süzür, yellənir, amma bir-birinə dolaşmır, havada işıqlı xətlər cıza-cıza uzaqlaşırdı:

- Oğlan... Ay oğlan, sən bizi görürsən?

Zəfər gözlərini ovuşdurdu. Gördüyü möcüzəyə bir də diqqətlə baxdı. Görürdü. Əlbəttə, görürdü. Parıltılı, şüşə kimi büllur və şəffaf pərilər idi. Havadan asılan nazik tellərin üstündə uçuşurdular...

- Oğlan, bizi görürsən?! Niyə dillənmirsən axı... - Zəfər gülümsündü. Üzü pərilərdən düşən parıltı ilə işıqlandı. Pərilər o teldən bu telə, bu teldən o telə hoppandılar. Şən gülüşləri şeh damcılarına çevrilib otların üstü ilə diyirləndi. Büllur damcılar xarıbülbüllərin ləçəyində parıldadı. - Görür, bizi görür... İlk dəfədir ki, insan bizi görür:

- Görürəm...

- Görürsən... Çünki bunu özümüz istədik...

- Siz... Siz kimsiniz?! - Zəfərin dili topuq çaldı.

***Hekayənin ardını kitabxanamızda oxuya bilərsiniz***




# Deniz Işık

# AĞ QAZ ALBİ

ALBİ BACI-QARDAŞ İLƏ EYNİ GÜNDƏ YUMURTADAN ÇIXDI.

ATA QAZ ÇAŞ-BAŞ QALDI. ANA QAZIN ÜRƏYİ GETDİ. BALALAR ÇIĞIRIŞDILAR.

İNDİYƏ QƏDƏR BELƏ BİR QAZ BALASI GÖRÜLMƏMİŞDİ. ALBİ QAZA YOX, CÜCƏYƏ OXŞAYIRDI. ALBİ ÖZÜNÜ XOŞBƏXT HİSS ETSƏ DƏ, AİLƏSİ NARAHAT İDİ.

ƏVVƏL ONU BOYADILAR.
BUNU ÇARƏ SANDILAR.



BİRDƏN YAĞIŞ YAĞDI.
BOYA DA AXIB GETDİ.

AMMA QAZLAR ƏL ÇƏKMİRDİLƏR Kİ, ƏL ÇƏKMİRDİLƏR. BU DƏFƏ ALBİYƏ ÖZ RƏNGLƏRİNDƏ PALTO TİKİB GEYİNDİRDİLƏR. PALTO GEYİNMƏK VAXTI DEYİLDİ, QAZLAR BUNU BAŞA DÜŞÜRDÜLƏR. AMMA TƏSLİM OLMAQ İSTƏMİRDİLƏR. ARPA VƏ BUĞDADAN SIYIQ BİŞİRİB QAŞIQ-QAŞIQ ALBİYƏ YEDİZDİRDİLƏR.

"BƏLKƏ, ÇOX YEMƏK YESƏ, RƏNGİ DƏYİŞƏR"- DEYƏ DÜŞÜNDÜLƏR. AMMA BEZƏCƏYİNİ HEÇ FİKİRLƏŞMƏDİLƏR...

ALBİNİN AİLƏSİ BU VƏZİYYƏTLƏ BARIŞMAQ İSTƏMİRDİ. "YIĞIŞIN, İSTİRAHƏTƏ GEDİRİK ! - DEDİLƏR.

DƏNİZ KƏNARINDA ALBİYƏ ÇOXLU - ÇOXLU GÜN KREMİ ÇƏKDİLƏR. ALBİNİN HƏSSAS DƏRİSİ GÜNƏŞƏ DÖZMƏDİ. AXŞAM O, SOBADA BİŞMİŞ ÖRDƏYƏ OXŞAYIRDI.

BƏƏƏƏSDİİİ !

NƏ QƏDƏR ÇALIŞSALAR DA ALINMADI Kİ, ALINMADI. ALBİNİ ÖZLƏRİNƏ OXŞADA BİLMƏDİLƏR. ALBİ "DAHA BƏSDİR ! "- DEDİ. O, ƏŞYALARINI YIĞIB, DÜNYA SƏYAHƏTİNƏ ÇIXDI.






BU DÜNYADA MÜTLƏQ ONUN KİMİLƏR OLMALI İDİ. ALBİ DÜNYANI DÜZ ÜÇ DƏFƏ DOLANDI. GETDİYİ YERLƏRDƏN AİLƏSİNƏ ŞƏKİLLƏR GÖNDƏRİRDİ.

KANADA, AFRİKA, ALYASKA... SƏN DEMƏ, DÜNYADA ALBİ KİMİ FƏRQLİ OLANLAR VARMIŞ.

GƏZDİ, GÖRDÜ, TANIDI. EVƏ QAYITMAQ VAXTI ÇATDI. EVDƏ ONU GÖZLƏYƏN BİR SÜRPRİZ DƏ VARDI. AİLƏSİ BÖYÜMÜŞDÜ, ALBİ ARTIQ DAYI OLMUŞDU. ƏTRAFINA BALACA QAZLAR TOPLANMIŞDI. AMMA ARALARINDA BİRİ, EYNİ DAYISI KİMİ...





# Ayı daşı

**ŞƏLALƏ ƏMRAHOVA**
*F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşı*

Gün əyilməyə başlayanda Adilgilin kəşfiyyat dəstəsi nəzərdə tutulan mövqeyə çatmışdılar. Bura dağlarla əhatə olunmuş kiçik bir meşə idi. Onlar bir müddət dincəlməli, qaranlıq düşdükdən sonra yola davam etməli idilər. Hava tutqun idi. Günboyu davam edən döyüş dayanmışdı. Dağlarda əks-səda verən mərmilərin partlayış səsi kəsilmişdi. Təbiət sükuta qərq olmuşdu. Yalnız dağlardan əsən küləyin qovub apardığı xəzəllərin xışıltısı eşidilirdi.

Dəstə üzvləri naməlum səbəbdən kökündən qopub yanakı düşmüş palıd ağacının yanında daldalandılar. Adil ilk dəfə idi kəşfiyyata gedirdi. Bu gecə həyata keçirəcəkləri tapşırığın mühümlüyü onu həyəcanlandırırdı. Böyük bir ərazinin erməni quldurlarından təmizlənməsi bu kəşfiyyatın nəticələrindən asılı idi. O, kürəyini ağaca söykəyib oturdu. Küləyin gətirdiyi dağ havasını ciyərinə çəkdi. Və anlaşılmaz duyğular qəlbini bürüdü... Özünü bir anlığa nənəsinin çiçək rayihəli otağında hiss etdi. Bir andaca anladı... Onu keçmişə qaytaran küləyin gətirdiyi otların, çiçəklərin ətri, qoxusu idi. Onların evlərində dağ çiçəkləri ilə dolu kiçik bir yastıq saxlanılırdı. Adilin nənəsi onları Kəlbəcər yaylaqlarından toplamışdı. Ailə bu yastıqcanı həm Kəlbəcərdən, həm də nənədən yadigar kimi qoruyub saxlayırdı.

Adil əlini uzadıb çoxdan solmuş çəmən bitkilərindən qopardı. Ovcunda sıxıb nəfəsinə tutdu. Yenə həmin hisslər, həmin duyğular...

Atanın yaylaq xatirələri çox idi. Onların hər biri uşaqlıqda oxunan nağıl kimi şirin, maraqlı idi. Uşaqlar bu xatirələrin hərəsinə bir ad vermişdilər. "Ayı daşı" əhvalatını dinləyərkən özləri də sanki ata ilə bərabər o günləri, o hissləri yaşayırdılar: "Bizim uşaqlığımızın bir hissəsi Kəlbəcər yaylaqlarında keçib. Hər yay aran yerinin qızmar














istisindən qorunmaq üçün bir çox ailə dağlara üz tutardı. Biz həmişə "Qətl ağacı" adlanan yaylaqda məskən salar, üç ay yayımızı burada keçirərdik. Bizdən hələ bir ay əvvəl kəndimizin çobanları gəlib bulaqların lap yanında, köhnə yurd yerlərində köç salar, fermanın qoyun-quzusunu otarardılar. Çobanların "Kurortniklər" adlandırdığı bizlər isə dörd ayrı-ayrı təpələrdə çadırlarımızı qurardıq. Biz başqalarından fərqli olaraq qurduğumuz bu binələrə alaçıq deyil, elə çadır deyərdik. Aşağıda buz kimi soyuq dağ çayı daşların, qayaların arası ilə axıb gedirdi. Bizi əhatə edən dağların hər birinin öz adı vardı. Çadırımızın arxasında Adsız dağ, sağ tərəfdə Ayı çınqılı dağı, sol tərəfdə Yazılı dağ, üzbəüzdə isə Vızvıza dağı. Dəli dağ da görünürdü. Lap uzaqdakı dağların arxasından boylanırdı, əzəmətli, əlçatmaz və gömgöy rəngdə...

Yaylaq həyatı çox gözəl idi. Təbiəti füsunkar, havası, suyu təmiz. Həyat burada qayğısız, əyləncə dolu keçirdi. Kənddə uzaqda yaşayanlar burada qonşu olub bir-birinə kömək, arxa olurdular. Biz uşaqlar aranda olduğu kimi, yaylaqda da valideynlərimizə kömək edərdik. Bulaqdan su daşıyar, çörək bişirmək üçün yanacaq yığar, dağları gəzib kəklikotu, qantəpər, gülxətmi, solmazçiçəyi toplayardıq. Boş vaxtlarımızda isə bolluca əylənərdik. Dağların quzeyində qışdan qalan qar yığınında sürüşər, vızvıza daşlarını toplayıb onlardan fiqurlar düzəldər, bəzən də yığışıb başqa, görmədiyimiz yerlərə səyahət edərdik.

Bir gün üç nəfər sözləşib Ayı çınqılı dağına çıxdıq. Dağ çox da hündür olmadığından onun zirvəsinə tez çatdıq. Dayanıb qarşımızda açılan yeni mənzərəyə tamaşa etdik. Digər yaylaqlardan fərqli olaraq burada yaşayış yox idi. Ona görə təbiəti öz vəhşi görkəmində qalmışdı. Özümüzlə götürdüyümüz zənbilləri kəklikotu ilə doldurmağımız çox çəkmədi. Geri qayıdanda təpəylə üzüyuxarı qalxan ağ rəngli Niva maşını diqqətimizi çəkdi. Nömrəsindən erməni maşını olduğunu anladıq. "Yəqin Cermuxdan gəliblər" dedim. O vaxtlar uşaq idik. Onların bu insansız yerlərə nə üçün gəldikləri bizi maraqlandırmadı.

*Ardı gələn sayımızda*




Dünya uşaq ədəbiy-
yatından seçmələr

# The Little Lie

Writen by Jade Maitre

Far, far away, in a land where the wind blew in gusts over green sloping hills and the sea bashed joyfully on the rocks, lived a little boy called Luca.

Luca lived in a lighthouse, with no windows save for one at the very top, where his bedroom was, and where the lamp let out its glare to tell the ships that it was there.

There was not very much to read in a lighthouse. And it was not easy to read either, especially if you wanted to read in your bed-room.



Because in the daytime the window was take up by the large lamp, and the sun found it hard to get in. In the night- time, Luca could only read a word every few seconds, when the lamp would swish its way past, and everything would go blinding for a moment.

But Luca loved reading, and so he did his best. He went outside and read in the garden, though the weather was blustery, and the wind would turn the pages before he could.



He read in the kitchen, too, by the light from the oven, when his mother was cooking jellyrolls and casseroles. In this way, Luca read all four books in the lighthouse. And when he had finished, he read them again.

Yet living in a lighthouse with only four books is no life for a small boy who loves to read.



His parents misunderstood his yearning and though only that he might be lonely. And so, when they met a little girl who lived in a passing submarine, they invited her in to play with him.

The little girl was called Lily. She loved to read too. But there is not much room for books in submarines.

She had only one book. It was a book about the tides, because her father thought that it they could only fit one book into a submarine, it was useful to have a book that two people could read.

Lily loved that book. It had a green cover, and it had marks on it because she carried it every-where.

Today Lily appeared at the door to the lighthouse, clutching the book beneath her arm, "Hel-lo," she said. "Hello, " Luca replied.

They looked at each other for a long while, Luca in the doorway and Lily on the step.

"Are you going to invite her in? " said Luca's mother. And so he did.

Once they had eaten, Luca showed Lily his upstairs room. He showed her how the light spun on its base, and lit up the whole of the sea.

He showed her his four books.

*To be continued*

# Радуга



Вот радуга. От края до края света встала яркая разноцветная дуга. Семь полос, семь лент светятся, сияют. Красная, оранжевая, желтая, зеленая, голубая, синяя, фиолетовая. Увидев такую радугу, мы зовем друг друга, даже загадываем желания. Но это редко бывает. Чаще радуга показывается нам маленьким обрывком разноцветной, но не яркой ленточки. Мы и этому рады. Потому что забыли те давние-давние времена, когда каждое утро начиналось с того, что зажигалась яркая, во все небо радуга. Раньше солнца вставала радуга. До позднего вечера вместе с солнцем светила людям. Привыкли люди к радуге. Наверное, чересчур привыкли. А потому, когда у нее случилась беда, люди ничего и не заметили.

А произошло вот что. Жил-был один человек. Его красивый дом стоял в чудесном саду. Он вышел  в сад. И встретили его, как и вчера, и позавчера, и раньше, красные розы, оранжевые ноготки, желтые золотые шары, зеленая трава, голубые незабудки, синие колокольчики, фиолетовые тюльпаны. Цветы радостно повернулись к человеку. Но человек был не совсем тот, что вчера. Обида затуманила ему глаза, а раздражение разбудило несправедливость и злые слова.

Необыкновенно яркие красные розы услышали от человека, что он так старательно за ними ухаживает, что просто стыдно им быть такими бледными. Оранжевым ноготкам человек сказал, что они слишком оранжевые, что маленьким цветкам неприлично быть яркими. А желтые золотые шары оказались виноваты в том, что сколько их ни тряси, не упадет ни одной золотой монетки. Только зря называются золотыми. Зеленую траву человек упрекнул в том, что она лохматая -косматая, хотя раньше считалось, что трава просто густая и пышная. Голубым незабудкам человек сказал, что скромность — это хорошо, но не до такой степени, чтобы разглядеть было трудно. Синие колокольчики оказались виноваты в том, что не умеют звенеть так же, как серебряные колокольчики-звоночки на дверях дома. Фиолетовым тюльпанам человек сказал, что, сажая их луковицы, хотел, чтобы выросли белые цветы, а потому, оказавшись фиолетовыми, тюльпаны очень огорчили, а может, даже обманули его. В общем, для всех цветов неизвестно откуда взялись у человека недобрые слова. В конце концов, окинув взглядом цветы, человек сказал еще несколько слов:

— Да и какая от всех от вас польза? Выполоть вас! С корнем вырвать надо, а двор асфальтом залить! Человек и сам зажмурился, услышав собственные страшные слова. А цветы... Цветы и трава так испугались, что мгновенно потеряли свои яркие чудесные краски и стали серого цвета. Цвета серых мышей или даже крыс. Солнце вздрогнуло, увидев, что случилось, вздрогнули легкие облака, застыло небо, радуга качнулась. Ты ведь помнишь, что в те давние времена радуга каждый день сияла. Нужно было что-то делать. И быстро! Пока зажмурившийся человек не открыл глаза. Пока не увидел, что серыми стали цветы. Людям нельзя видеть серые цветы — это очень, очень опасно... И тогда семицветная радуга в один миг бросила свои яркие ленты цветам: розам — красную, ноготкам — оранжевую, золотым шарам — желтую, траве — зеленую, незабудкам — голубую, колокольчикам — синюю, тюльпанам — фиолетовую. Цветы стали еще прекраснее. А человек, уже, конечно, открывший глаза, стал прежним. Таким, как вчера, позавчера, раньше. Его собственные злые слова будто окатили его ледяной водой, в которой растворилась обида и несправедливость. Осталась, правда, легкая головная боль. Но она скоро пройдет. Человек попросил у цветов прощения.

— Ах, что вы! Ах, о чем вы!— сказали добрые цветы.— Все бывает.

И человек снова стал жить хорошо... А как радуга? Плохо... Чуть заметны бледные полосы — следы от подаренных цветам ярких лент. Почти весь свой цвет потеряла радуга. И заболела. Ведь сила радуги в ее цвете. Как больной человек сжимается в комочек под одеялом, так заболевшая радуга сжалась в маленькую бледно-цветную ленточку и спряталась в облаках. Люди ничего не заметили. Ведь у них остались солнце и луна, звезды и дождь, туман и северное сияние, облака и еще столько чудес, что не счесть.

...Прошло много лет, очень много времени. А время, говорят, все лечит. Радуга стала поправляться. Когда чувствует себя получше, встает дугой, высокой, яркой. Когда сил поменьше, появляется ленточка маленькая. Ненадолго, но все-таки старается показаться людям. Ведь поняли люди наконец, что радуга им очень нужна.

***Наталья Абрамцева***

Gəlin birlikdə oxuyaq

# Yeni kitablar bizim rəflərimizdə






"Anamın nağılları" kitabı yazıçının anası Böyükxanım ananın dilindən eşitdiyi, yazıya aldığı nağıl və əfsanələrdən ibarətdir. Kitab orta və böyükyaşlı uşaqlar üçün nəzərdə tutulur.




Hadisələrin Niderlandda (Hollandiya) baş verdiyi romanın süjet xətti Brinkerlər ailəsinin başına gələn hadisələrlə bağlı olsa da, bütövlükdə əsərdə holland xalqının həyatının, tarixinin, mədəniyyətinin bədii portreti yaradılmışdır.




Əsərin baş qəhrəmanı doktor Fergüson Afrikanı başdan-ayağa dolaşmaq, bu qitə barədə ətraflı məlumat toplamaq istəyir. Ancaq səyahət onun düşündüyü qədər asan keçmir. Doktor və yoldaşları – sadiq qulluqçu Co ilə etibarlı dost Dik Kennedi beş həftə boyu qeyri-adi hadisələrin iştirakçısına çevrilirlər.






İndiyədək əksər dillərə tərcümə edilən və dəfələrlə ekranlaşdırılan "Bembi" romanın baş qəhrəmanı Bembi adlı maral balasıdır. Bembinin bir-birindən maraqlı macəraları az qala doğulduğu gündən başlayır və oxucuda dərin təsir buraxır.




Müasir yeniyetmələrin məktəb həyatından bəhs olunan bu kitabda bir çox gündəlik problemlərə toxunulur və onların ədalətli şəkildə həll yolu göstərilir.

Romanda hadisələr Fransa kralı XVI Lüdovikin sarayında cərəyan edir. XVI Lüdovikin kraliça Mariya Antuanetta üçün sifariş etdiyi bahalı boyunbağı saray daxilindəki ziddiyyətlər fonunda ağlasığmaz əhvalatların baş verməsinə gətirib çıxarır.







"Amuletin tarixçəsi" ndə Siril, Anteya, Robert və Ceyn yenidən qum pərisi Sammiedlə qarşılaşırlar. Sammied onlara bütün arzuları anındaca həyata keçirən möcüzəvi daş – amulet haqqında danışır. Lakin daşın yarısı olmadığından o, arzuları gerçəkləşdirə bilməz. Bu səbəbdən də uşaqlar amuletin itən parçasının axtarışına çıxırlar.

Bu kitabda toplanan 22 əsərdə Birinci və İkinci Qarabağ müharibələri dövrünün savaş ruhu, anaların balaların ağrı-acısı təsvir olunur, döyüşçü ürəyinin sirlərini açılır.







Bu nağılın ilkin versiyası nə az, nə çox Psixeya haqqında qədim yunan mifidir. Onun gözəlliyinə böyük bacılarından tutmuş ilahə Afroditaya qədər hər kəs nifrət edirdi. Qızı bir qayaya zəncirləyirlər ki, bədheybət onu yesin, lakin möcüzə baş verir və bir sirli varlıq onu xilas edir.






# Uzuncorab Peppi

***Dünya uşaq ədəbiyyatının ən məşhur qəhrəmanlarından biri Uzuncorab Peppidir. Bu sevilən obrazın yaradıcısı isə isveçli uşaq yazıçısı Astrid Lindqrendir. O hər zaman uşaqlara bağlı idi. Astrid Lindqren sağlığında heykəli qoyulan nadir yazıçılardandır. Hətta kiçik planetlərdən biri də onun şərəfinə adlandırılıb. Bunu eşidərkən yazıçı zarafatla söyləmişdi: "İndi məni Astrid Lindqren yox, Asteroid Lindqren də çağıra bilərsiniz"...***



## "Uzuncorab Peppi" necə yarandı?

1941-ci il idi. Astrid Lindqren artıq ailə qurmuşdu.

Lindqrenlər ailəsi yeni mənzilə köçmüşdülər. Ancaq deyəsən, yeni mənzil ailə üçün o qədər də düşərli olmadı, belə ki, onların balaca qızları Karinin ciyərlərinə soyuq dəydi. Ona heç bir dərman və heç bir müayinə kömək etmirdi.

"Onu ancaq möcüzə sağalda bilər!" – deyə, həkimlər anaya bildirdi.

Bundan sonra yəqin ki, Astrid Lindqrenin hansı hisslər keçirdiyini təsəvvür etmək o qədər də çətin deyildi. O, gecə-gündüz qızının çarpayısı yanında keşiş çəkirdi.

Bir dəfə o, xəstə yatağındakı qızına nağıl danışmaq qərarına gəlir. Karin yemədiyi üçün çox zəifləmişdi, bununla belə, anasının danışdığı nağılı maraqla dinləyir. Ana hətta nağılın əsas qəhrəmanının adını da fikirləşib tapır - Peppi.

Astrid hər dəfə Peppi və dostları haqda qızına müxtəlif hekayətlər uydurub danışır.



Bu Karina yaxşı təsir göstərir, o, artıq həm nahar, həm şam edirdi. Çox keçmədən isə yavaş-yavaş çarpayıdan qalxmağa, güclə də olsa, yeriməyə başlayır.

Bəli, möcüzə baş verirdi! Karin sağalırdı!

İşi belə görən Astrid Lindqren kağız və qələm götürür, Peppinin macəralarını yazmağa başlayır...

Əvvəlcə yerli nəşriyyatlar əlyazma ilə tanış olub ağız büzürdülər: "Bu nədir belə?! Bu cür dəcəl qız haqqında hekayələri dərc etmək?! Dəhşət!..."

Amma elə ki, əsər işıq üzü gördü, bircə günün içində əl-əl gəzməyə başladı.

İndiyədək isə o, dünyanın əksər ölkələrində, həm də üst - üstə milyonlarla nüsxədə çap olunub və müəllifinə dünya şöhrəti qazandırıb.

## Uzuncorab Peppi kimdir?



O, toyuq villasında valideynlərsiz yaşayır.

Onun doqquz yaşı var və çox nadincdir.

Elə Astrid Lindqrenin əsərində də qızcığazın bu nadinclikdən irəli gələn şən və əyləncəli macəralarından bəhs olunur.

Peppinin bir atı, bir meymunu və uzun corabları vardır.

O, qonşuluqdakı evdə yaşayan uşaqlarla tanış olduqdan sonra onun iki dostu da olur.

Piiip güclüdür, hazırcavabdır, yaxşılıq etməyi sevir və bacarıqlıdır.

Amma bəzi oxuculara da elə gəlir ki, Pippinin hərəkətləri qəribədir və bir o qədər də xoşa gələn deyil.

## Maraqlı bilgilər



* Bəzi ehtimallara görə, Astrid Lindqren Uzuncorab Peppi obrazını qızı Karinin 40-ci illərdəki sinif yoldaşı Sonja Melindən təsirlənərək yaradıb.

* Başqa bir ehtimala görə, Astrid Lindqrenin "Peppi" obrazının ilham qaynağı 1930-cu illərdə danimarkalı yazıçı Karin Mixaylesin yaratdığı "Bibi" xarakteridir. Onların yalnız adları oxşar deyil. Belə ki, danimarkalı yazıçının qəhrəmanı da Uzuncorab Peppi kimi balaca və şıltaq bir qızdır, qorxmazdır, məsuliyyətlidir, xeyirxah və sevimlidir.

* "Uzuncorab Peppi" əsəri ümumilikdə üç cilddən ibarətdir.

* "Uzuncorab Peppi" nin müəllifi sağlığında abidəsi ucaldılan ilk qadındır. Astrid Lindqrenin heykəli ölkəsinin paytaxtı Stokholmun mərkəzindədir. O, öz abidəsinin təntənəli açılış mərasimində iştirak edib.

"Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da "Uzuncorab Peppi" əsəri əsasında uşaq tamaşası hazırlanıb. Tamaşa Gənc Tamaşaçılar Teatrının səhnəsində oynanılıb (2016-ci il).

# Bullinq nədir?




***Bulinq (ing. “bullying”) – bir və ya bir neçə uşağın digər uşağa və ya uşaqlara qarşı bilərəkdən dəfələrlə nümayiş etdirdiyi qərəzli və aqressiz davranış forması - zorakılıqdır. Bullinq zorakılığın bir növü olub, əsasən həmyaşıd uşaqlar arasında baş verir. Hər uşaq gec-tez bullinqlə rastlaşa bilər: qurban, incidilən və ya şahid olaraqdan.***



## Bullinqin növləri

***Fiziki zorakılıq (Physical bullying)***—Vurmaq, təpikləmək, itələmək və s. yollarla fiziki zərər vuran davranışlar fiziki zorakılığa daxildir. Zorakılıq edənin məqsədi qorxutmaq, cəzalandırmaq, öz gücünü göstərmək və istədiyini diqtə etdirmək olur.

***Şifahi zorakılıq (Verbal bullying)*** – lağ etmə, ləqəb qoyma, istehza, təhqir və şayiələr edilən davranış nümunələri aiddir. Burda məqsəd qarşı tərəfi alçaltmaq, gülünc duruma düşürməkdir.

***Sosial zorakılıq (Social bullying)*** — Ayrı-seçicilik etmə, uzaqlaşdırma, hansısa qrupdan kənarlaşdırmaq, iqrçilik etmək və s. bu kimi davranışlar sosial zorakılığın nümunələridir.

***Kiber zorakılıq (Cyberbullying)*** — SMS, E-poçt, söhbət qrupları və ya sosial media hesabları vasitəsilə zərərli məzmunların göndərilməsi ilə baş verir. Bura sosisal media hesablarının qırılması, bank hesablarına müdaxilə, şantaj və s. aid ola bilər. Son illər ən böyük artış göstərən zorakılıq növlərindən biridir.

***Psixoloji zorakılıq (Physical bullying)***— Təqib etmək, qərəzli baxışlar və b. psixoloji zorakılıqlar bu növə daxildir.





## Bullinqə məruz qaldıqda nə etməli?

***Böyüklərə bildirin*** – Bəzən zorakılıq halı yanlış anlaşılma ucbatından da ola bilir.

Ancaq bu hal qəsdən və təkrar olduqda müəllim və ya valideynlərə bunu bildirməkdə fayda var. Eyni zamanda yaxındakı polis bölməsinə də müraciət edə bilərsiniz.

***Qaynar Xəttə zəng edin*** – “Azərbaycan Uşaq Qaynar Xətt” i zorakılıqla bağlı müraciətlərin edildiyi qaynar xətt xidmətidir. Qaynar xəttə müraciət edən uşaqların anonimliyi qorunur (Gizli saxlanılır).

***Yaxşılıq edin*** – Əgər bütün xəbərdarlıq və cəzalar qarşı tərəfə təsir etmirsə, o zaman sadəcə bir yol qalır – Yaxşılıq. Bulling edən tərəfə yaxşılıq etmək, onun peşman olmasına və öz yanlış əməlindən əl çəkməsinə səbəb olacaqdır.

Bəzi şagirdlər dəfələrlə zorakılıqla üzləşsə belə, bunu bildirməkdən çəkinir və hər kəsdən gizləyir. Şüphəli bir hal olduqda uşağı dilə gətirməyə çalışın və məktəbdəki həmyaşıdları ilə münasibətlərini öyrənin.

*Dəfələrlə bullinqin qurbanı olmuş şagirdlərin sonrakı həyatlarında xəstəlik və psixoloji problemlərlə üzləşmə ehtimalı daha yüksəkdir. Zorakıllıq uşaqlarda bəzi tramvalara, uzunmüddətli depressiyaya, hətta intihara belə səbəb ola bilər. Nəzərə alaq ki, bullinqin səbəb olduğu intihar halları heç də az deyil. (Amerika və Avropada aparılan araşdırmalar bunu sübut edir. )*

## Kimlər daha çox bullinq edir?

- Özü kimi olmayanı sevə bilməyən;
- Təhsil və tərbiyədən yoxsul qalan;
- Kin, nifrət və paxıllığa meyilli uşaqlar;
- Gücə və ehtirasa düşkün.

## Bullinqə qarşı uşaqları necə tərbiyə etməli?

Özündən zəifi incitməyin güc olmadığını, əksinə bunun bir zəiflik nümunəsi olduğunu bildirməli.

Uşağın dalaşqanlığı ilə fəxr etməməli, aqessiv davranışlarını dəstəkləməkdən əl çəkməli.

Başqalarını güldürmək üçün kimisə alçaltmağın yolverilməz olduğunu aşılamalı

## Bullinqə qarşı nələr edilməlidir?

Uşaqları zorakılığı təbliğ edən film, musiqi və oyunlardan uzaq tutmalı.

Məktəblərdə psixoloji bölmə yaradılmalı və burada peşəkar psixoloqlar çalışmalıdır.



# Barmaqları gözəlliklər yaradan Fərəh



Gənc istedadlar





Gördüyünüz bu maraqlı rəsmlərin müəllifi 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin 10 yaşlı gənc rəssamı Fərəh Əliyevadır. Fərəh 4 yaşından dünya görüşünü və düşüncələrini kağız üzərində əlvan rənglərlə ifadə edir. Rəsm haqqında söz düşərkən Fərəh hər zaman qeyd edir ki, fırça bir rəssamın fikirlərinin və əlinin davamıdır. Onun rəsmlərində heyvan, natyurmort və portretlərə rast gəlmək olar.

Hərtərəfli istedada sahib olan Fərəh rəsmlə bərabər, musiqi, rəqs və atçılıqla da fəal məşğuldur. Onu da qeyd edək ki, o, fortepiano ixtisası üzrə yerli və beynəlxalq müsabiqələrdə müxtəlif dərəcəli diplomlara layiq görülmüşdür.















# Biliyinlə qazan

Nizaminin “Leyli və Məcnun” poemasını dilimizə hansı şair tərcümə etmişdir?

A. Səməd Vurğun  
B. Süleyman Rüstəm  
C. Rəsul Rza  
D. Bəxtiyar Bahabzadə

Nərbala hansı Azərbaycan nağılının baş qəhrəmanıdır?

A. ”Daşdəmirin nağılı”  
B. ”Göyçək Fatma”  
C. ”Ağ atlı oğlan”  
D. ”Məlikməmməd”

Süleyman Sani Axundovun qəhrəmanı Tutunu hamı bu adla çağırırdı:

A. Cırtdan  
B. Ağca qız  
C. Qaraca qız  
D. Küllücə

Yeddi səyahəti ilə məşhur olan dənizçı – nağıl qəhrəmanı kimdir?

A. Ələddin  
B. Tarzan  
C. Karlson  
D.Sindbad

Hansı yazıçı öz təmsilləri ilə məşhur olmuşdur?

A. Abdulla Şaiq  
B. Səməd Vurğun  
C. Rəsul Rza  
D. Məhəmməd Fizuli

Uşaqlar üçün hansı kitablar hazırlanır?

A. Hamak kitabları  
B. Beşik kitabları  
C. Qatlanan kitablar



# Rəqəmlərlə heyvanların zəkası



Alimlər heyvanların beyin və bədən ölçülərini göstərən rəqəmlərə əsasən, onların şüur səviyyəsini müəyyən edib. Rəqəm nə qədər yüksəkdirsə, heyvan o qədər şüurludur. Şüur bölgüsünə əsasən, aşağıdakı canlıların göstəricilərinə nəzər yetirin.



Köpəkbalığının beyninin çox hissəsi onun iybilmə qabiliyyətini tənzimləyir.



Tarakanların arxa hissəsində əlavə beyni var.



Alliqatorun beyni yemək qaşığının yarısına sığa bilər.



Beyninin müəyyən hissəsi zədələndikdə heyvanlar asqırmaq bacarığını itirir.



İNSAN – 7,4



DELFİN – 5,3



İT – 2



QOYUN – 0,8



SİÇAN – 0,5



PİŞİK – 1



DOVŞAN – 0,4

# Dünyanın ən ağıllı heyvanı

# FİLLƏR

Əlbəttə, delfin, qorilla, it və tutuquşu ağıllı heyvanlardır, amma görəsən, fillər heyvanların ən ağıllısı ola bilər?
Bu suala cavab vermək üçün fillər haqqında aşağıdakı dörd hekayəni oxuyun.

**Təbiəti sevənlər**

***ÇAQQAL NİYƏ FİLİ SEVMİR?..***

**Oyuğundan çıxıb Dələ,**
**Söhbət etdi Çaqqal ilə:**
**— Söyləməzsən,**
**Bu fili sən**
**Axı niyə**
**Sevməyirsən?**
**— Çox məğrurdur, əyilməzdir,**
**Malyedirtməz, malyeməzdir...**
**Xoşlamayır "ov" etməyi,**
**Toyuq-cücə ürkütməyi**
**— Hə! — söylədi bu an Dələ-:**
**— Daha bildim, Çaqqal lələ**
**Qüdrətli Fil,**
**Demək, tayın-tuşun deyil....**

***Hikmət Ziya***

## Fillərin uzunmüddətli yaddaşı var

Fillər heç zaman heç nəyi unutmur. Zambiyada "Mfuve" hotelindəki qeyri-adi "qonağın" şəklini çəkilmiş fotoqraf Frans Lantinq deyir ki, fillər hara olmasından asılı olmayaraq, xoşladığı yerə hər zaman gəlir.



***FİL UDAN CÜCƏ***

İlk dəfə hindən çıxıb,
Yan-yörəsinə baxıb —
Cücə, böcək udandan,
Civildədi biaram;
— Mən istəsəm lap Filin
Özünü də udaram!..

***Hikmət Ziya***



## Fillər bir-birinə öyrədir

Şərqi Afrikadakı maasai xalqının adətinə görə, onlar cəsurluğunu, fillər də daxil olmaqla, heyvanları təhlükəli saydıqları heyvanları nizələməklə sübut edirlər. Xoşbəxtlikdən, fillər müxtəlif insan qruplarını ayırd edə bilir. Onların bu qabiliyyətini isbatlayan araşdırmada fillərə biri maasai ovçularının, digəri isə ziyansız yerli fermerlərin paltarlarını geymiş iki qrup göstərmişdir. Fillər maasailərin geydiyi paltarı gördükdə və iyini duyduqda qaçıb gizlənmiş, fermerlərin paltarlarına isə daha sakit reaksiya vermişdi. Hətta hücuma məruz qalmamış fillər də eyni şəkildə hərəkət etmişdi. Bəs onlar qaçmaq lazım olduğunu haradan bilirlər? Bu biliklər onlara digər fillərdən ötürülüb.

**Afrika filinin beynində insan beynindəkindən 3 dəfə çox neyron (siqnal göndərən hüceyrə) var.**



## Fillər alətlərdən istifadə edir

Nepalda saxlanılan bir neçə asiya fili milçəklərin əlindən zara gələcək öz milçəköldürənini düzəldib. Fil xortumu ilə ağac budağını götürüb bədəninə çırpmaqla milçəkləri qovur. Heyvanların davranışı üzrə ekspertlər Bencamin və Linet Hartlar hətta bəzi fillərin milçəköldürəni qısaltmağını və rahat olsun deyə, artıq yarpaqlarını qopardığını da görmüşlər.



## Fillər xilaskar rolunda

Bir bala fil Keniyadakı Amboseli Milli Parkında qurumuş palçıq çuxura düşmüşdü. Zədələnməsə də, oradan çıxa bilməsi üçün çox balaca idi. Bala filin anası çuxura düşərək böyürməyə başladı. İki yetkin qohum fil onun harayına yetişdi. Çuxur çox dərin olmasa da, kənarları çox sərt idi və ana fil balasını təkbaşına çıxara bilməzdi. Köməyə gələn fillər çuxurun kənarına çıxıb bir tərəfdən onu dişləri və ayaqları ilə qazmağa başladı. Boşalmış torpaqdan maili yamac yaratdıqda ana fil balasını bu yamacla yuxarıya itələdi.

**Qeydə alınmış ən ağır filin çəkisi təxminən 11 ton olmuşdur.**

**Bir araşdırmaya görə, fillər insanların müxtəlif dillərdə danışdığını ayırd edə bilir.**

**Fillər suyun iyini kilometrlərlə uzaqdan duya bilir.**



# Məntiqi sual

1 dəqiqə ərzində bu şəkillərdə nəyin səhv olduğunu anlaya bilərsinizmi?

Onun heyrətamiz diqqətliliyi sayəsində Şerlok Holms, göründüyü kimi, heç bir ipucu olmayan cinayətləri açdı. Xırda detalları fərq etmək bacarığı faydalı keyfiyyətdir. Bu məqalədə siz riyaziyyat və ya digər elmlər üzrə bilik tələb etməyən, lakin müşahidə qabiliyyətinizi sınayacaq illüstrasiyalar tapa bilərsiniz. Biz asanlıqla çaşqın olub-olmadığınızı və ya həmişə derli-toplu oldugunuzu göstərəcək viktorina hazırlamışıq.

Hər şəklin bir qeyri-dəqiqliyi var. Onu nə qədər tez tapa bilərsiniz?



Şəhər trafiki



İş masası



Cırcırama



Dəhlizdə ayaqqabılar




Avtobus dayanacağı



Tayqada düşərgə





Bir gənc dalğıc olmağa qərar verdi. İlk dalışda qorxdu, suyun altında tamamilə itdi və bir daha səthə çıxa bilmədi. Daha da pisi odur ki, oksigen tükənirdi.

O, geri dönüş yolunu necə tapıb?





İllüstratorumuz aşağıdakı şəkillərin hər birində bilərəkdən səhv etdi. Gəlin görək onları tapa biləsinizmi!





Ən diqqətlilər üçün test: Bu rəsmlərdə nəyin səhv olduğunu anlaya bilərsinizmi?

Hər illüstrasiyada bir qeyri-dəqiqlik var. Bir rəsmə bir dəqiqədən çox vaxt sərf etmədən hamısını tapa bilərsinizmi?

1. Mətbəx masası
2. Tərəvəz güveç üçün inqrediyentlər




